**UOT 321(091); 34(091)**

# BATUM KONFRANSI VƏ AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ XARİCİ SİYASƏTİNİN BƏZİ MƏSƏLƏLƏRİ

**İ.Q.ABBASOV**
***Ədliyyə Akademiyası***

*Məqalədə 11 may – 4 iyun 1918-ci il Batum Sülh Konfransından, onun Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasətinin formalaşmasında oynadığı roldan danışılır.*

**Açar sözlər:** Azərbaycan Xalq Cümhuriyyəti, Batum konfransı, dostluq haqqında müqavilə

Batum sülh konfransı (11 may 1918-ci il-4 iyun 1918-ci il) Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasətinin formalaşmasında mühüm rol oynamışdır.

**Əslində, Batum sülh konfransı Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasından əvvəl fəaliyyətə başlamışdır. Belə ki, Batum sülh konfransının ilk iclası 1918-ci ilin may ayının 11-də keçirilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin təşkili isə 28 may 1918-ci il tarixdə baş tutmuşdur** [1, 4].

Batum sülh konfransında Məmmədəmin Rəsulzadə, Məmmədhəsən Hacınski iştirak edirdilər. Lakin onlar Azərbaycan Xalq Cümhuriyyətini deyil, Zaqafqaziya Seymini, daha dəqiq desək, Zaqafqaziya Seyminin müsəlman fraksiyasını təmsil edirdilər. Əgər Batum sülh konfransı 11 may 1918-ci ildə öz işinə başlamışdırsa, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması 28 may 1918-ci il tarixdə baş tutmuşdur.

Batum sülh konfransı 11 may 1918-ci il tarixdə öz işinə başlayır. Konfransın işi 4 iyun 1918-ci il tarixə kimi davam edir. Artıq 28 may 1918-ci ildə isə Azərbaycan Milli İslam Şurası Şərqdə ilk demokratik Respublikanın-Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasını bəyan edir [2, 126-127].

Konfrans işinə, faktiki olaraq, 11 may 1918-ci ildə başlasa da, Azərbaycan dövləti ilə Türkiyə arasında müqavilə 4 iyun 1918-ci ildə, başqa sözlə, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının elan edilməsindən 7 gün sonra bağlanır. Həmin müqavilə Azərbaycan Xalq Cümhuriyyətinin təşkilindən sonra ilk xarici ölkə ilə - Türkiyə ilə bağlanmış müqavilə idi. Müqavilə «Türkiyə və Azərbaycan

Respublikası arasında dostluq haqqında» adlanırdı [3, 14-17].

Hələ bundan əvvəl Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının Sədri Fətəli Xan Xoyski bir sıra dövlətlərin xarici işlər nazirlərinə müstəqil Azərbaycan Respublikasının elan edilməsi haqqında 30 may 1918-ci il tarixində Tiflisdən radioqram göndərmişdir.

**Qeyd edilən radioqram Konstantinopol, Berlin, Vyana, Paris, London, Roma, Vaşinqton, Sofiya, Buxarest, Tehran, Madrid, Haaqa, Moskva, Stokholm, Kiyev, Xristianiya *(Oslo şəhəri – İ.A)*, Kopenhagen şəhərlərinə həmin ölkələrin, başqa sözlə, 17 ölkənin Xarici İşlər Nazirlərinin adına ünvanlanmışdı** [3, 12].

Radioqramda göstərilirdi ki, Zaqafqaziya Federativ Respublikası parçalanmış, Gürcüstan ondan ayrılmış, Azərbaycan Milli İslam Şurası bu ilin may ayının 28-də öz dövlət müstəqilliyini, Şərqi və Cənubi Zaqafqaziya olmaqla, elan etmişdir. Radioqramda daha sonra göstərilirdi ki, yuxarıdakıları Sizə məlumat verməklə, Zati-Alilərindən öz hökumətlərini bu haqda məlumatlandırmalarını xahiş edirəm. Radioqramda, həmçinin, göstərirdi ki, onun hökuməti müvəqqəti olaraq Yelizavetpolda ***(Gəncə şəhərində - İ.A)*** yerləşəcəkdir [3, 12].

**Azərbaycan Xalq Cümhuriyyətinin mövcudluğu dövründə bağladığı ilk dövlətlərarası beynəlxalq müqavilə Türkiyə ilə olmuşdur. Belə ki, 4 iyun 1918-ci ildə Batum şəhərində «Türkiyə ilə Azərbaycan Respublikası arasında dostluq haqqında» müqavilə bağlanmışdır. Təbii ki, həmin müqavilə 11 may 1918-ci il – 4 iyun 1918-ci il tarixlərdə Türkiyə ilə Zaqafqaziya Seyminin Müsəlman fraksiyası arasında aparılmış danışıqların yekunu kimi bağlanmışdır.**

Həmin müqavilənin 1-ci maddəsində göstərilirdi ki, Osmanlı İmperatorluğunun hökuməti ilə Azərbaycan Respublikasının hökuməti arasında daimi sülh və möhkəm dostluq olacaqdır [3, 14].

Qeyd edilən müqavilənin 2-ci maddəsinə əsasən Osmanlı dövləti ilə Azərbaycan, Gürcüstan və Ermənistan arasında sərhəd xətti müəyyən edilmişdi [4, 170].

**AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor Y.M.Mahmudov haqlı olaraq göstərir ki, Azərbaycanın arxalandığı və məğlubiyyət qarşısında olan Osmanlı Türkiyəsi isə «erməni təhlükəsi»ni özündən, yəni Şərqi Anadoludan uzaqlaşdırmaq üçün erməni dövlətinin Türkiyə sərhədləri xaricində-Osmanlı hərbi qüvvələri tərəfindən zəbt olunmuş Azərbaycan torpaqlarında yaradılmasına çalışırdı.**

**Azərbaycan tərəfinin, real olaraq, həm böyük dövlətlərin təzyiqlərinə, həm də ölkənin bütün ərazilərində soyqırımları həyata keçirən daşnak-erməni silahlı birləşmələrinə və onların arxasında duran dövlətlərə silahlı müqavimət göstərmək gücü yox idi. Buna görə də, Azərbaycan milli hərəkatının xadimləri ermənilərə dövlət yaratmaq məsələsində Osmanlı Türkiyəsinin diktəsi ilə hərəkət edirdilər, daha doğrusu buna məcbur idilər.**

**Yaranmış tarixi şəraitdə Azərbaycan tərəfi, yəni Zaqafqaziya Sey-**

**minin Azərbaycan fraksiyasının nümayəndələri ermənilərə dövlət yaratmaqdan ötrü hansı Azərbaycan torpaqlarının verilməsini müəyyən etmək üçün Türkiyənin vasitəçiliyi ilə erməni tərəfi ilə danışıqlara girdi. Danışıqlar Batum konfransı (11 may-4 iyun 1918-ci il) çərçivəsində və konfransda iştirak edən Türkiyə nümayəndə heyətinin vasitəçiliyi ilə aparıldı [1, 4].**

Batum müqaviləsinə görə Azərbaycan da ərazi itkilərinə məruz qaldı. Müqaviləyə əsasən Şərur-Dərələyəz qəzasının Şərur hissəsi və Ordubad istisna olmaqla, Naxçıvan qəzası Türkiyəyə keçdi. Bundan başqa, İrəvan qəzasının Kəmərli, Uluxanlı və Vedibasar bölgələri Türkiyəyə verildi, habelə Azərbaycan İrəvan şəhərini də Ermənistana güzəştə getməli oldu [4, 172].

Osmanlı dövləti ilə Azərbaycan Cümhuriyyəti arasında imzalanan müqavilənin 3-cü maddəsində qeyd edilirdi ki, «Azərbaycan və Ermənistan respublikaları hökumətləri arasında sərhədin müəyyən edilməsinə dair imzalanan protokol barəsində Osmanlı hökumətinə məlumat veriləcək və həmin protokol bu müqavilənin bir hissəsini təşkil edəcəkdir».

**Azərbaycan üçün ən önəmli olan 4-cü maddədə göstərilirdi ki, Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən tələb edildiyi təqdirdə Osmanlı hökuməti ölkədə qayda-qanunu və dövlətin təhlükəsizliyini təmin etmək üçün Azərbaycana zəruri hərbi yardım göstərməyi öz öhdəsinə götürür** [3, 16].

Azərbaycan tərəfinin ermənilərə Azərbaycan torpaqlarında dövlət yaradılması barədə yuxarıda göstərilən mövqeyi və bunun üçün konkret ərazi vermək təklifi Batum danışıqlarının gedişinə ciddi təsir göstərdi.

**Bununla da Batumda, faktiki olaraq, ermənilərə dövlət yaratmaq üçün hansı Azərbaycan torpaqlarının verilməsi ətrafında danışıqlar aparıldı. Batum danışıqları zamanı ermənilərin özlərinə mərkəz kimi iddia etdikləri Qars və Gümrü (Aleksandropol) artıq Osmanlı hərbi qüvvələri tərəfindən zəbt olunmuşdu və Türkiyə tərəfi bu şəhərlərdən hər hansı birinin danışıqlar mövzusu olmasına imkan vermədi. Beləliklə, İrəvan məsələsi gündəmə gətirildi. Ənvər paşa «çibanı kökündən təmizləmək» planının baş tutmadığını görcək ermənilərə veriləcək torpağın Azərbaycan və Türkiyə əraziləri arasında bir ada kimi əhatəyə alınması təlimatını verdi.**

Danışıqlar zamanı Azərbaycan ərazisində dövlət yaratmaq üçün ermənilərə dövlət veriləcəyi halda ermənilərə torpaq veriləcəyi halda erməni tərəfi Azərbaycan və Türkiyə tərəfləri qarşısında bir sıra öhdəliklər yerinə yetirməyi üzərinə götürdü [1, 4].

**Beləliklə, Batum danışıqlarında yuxarıda göstərilən məsələlərlə bağlı ilkin razılaşma əldə olunduqdan dərhal sonra, hələ Batum müqavilələrinin bağlanmasına, yəni 1918-ci il iyunun 4-nə bir həftə qalmış, 1918-ci il mayın 29-da Azərbaycan Milli İslam Şurasının qərarı ilə qədim Azərbaycan şəhəri İrəvan onun ətrafındakı 9 min kv.km ərazini əhatə edən torpaqlarla birlikdə ermənilərə verildi** [1, 4].

Şərqdə ilk demokratik respublika – Azərbaycan Xalq Cümhuriyyətinin

yaradılması elan edildikdən sonra Azərbaycan Milli İslam Şurasının 26 üzvü 29 may 1918-ci ildə yenə Tiflisdə Qafqaz Canişininin iqamətgahına toplaşaraq erməni dövlətinin yaradılması ilə əlaqədar Azərbaycan Milli İslam Şurasının nümayəndəliyi ilə Erməni Milli Şurası üzvlərinin Azərbaycan və Ermənistan sərhədləri barədə danışıqlarının nəticələri haqqında məsələ müzakirə etmişlər.

Həmin məsələ barəsində Azərbaycan Xalq Cümhuriyyəti müvəqqəti hökumətinin sədri F.X.Xoyskinin məruzəsi dinlənilmişdir. F.X.Xoyski məruzəsini belə bir məlumatla qurtarır ki, Ermənistan federasiyası üçün siyasi mərkəz lazımdır. Belə bir mərkəz Aleksandropol şəhəri ***(Gümrü şəhəri – İ.A)*** Türkiyəyə keçdikdən sonra yalnız İrəvan şəhəri ola bilər, ona görə də, İrəvan şəhərinin ermənilərə güzəşt edilməsi qaçılmazdır. Məsələ barəsində Milli İslam Şurasının üzvü Xəlil bəy Xasməmmədov, M.Y.Cəfərov, Ə.Şeyxülislamov (axırıncı «Hümmət» partiyası adından çıxış edir), M.Məhərrəmov (sosialist müsəlman bloku adından) çıxış edərək İrəvanın ermənilərə güzəştə gedilməsinin tarixi zərurətdən irəli gəlməsini qəbul edirlər. Səsvermə zamanı Milli İslam Şurasının **26 üzvündən** 16 nəfər təklifin lehinə, 1nəfər əleyhinə səs verməklə, 3 nəfər bitərəf qalır [5, 88].

Gördüyümüz kimi, Azərbaycan Milli İslam Şurasının İrəvanın ermənilərə güzəştə gedilməsinə cəmi 16 nəfər səs vermişdir. Bu isə həmin qərarın legitim ***(qanuni-İ.A.)***olmasını şübhə altına alır. Əslində, bu qərar o zaman qanuni olardı ki, iclasda iştirak edən üzvlərin ən azı 17 nəfəri onun lehinə səs versin. Protokolda isə iclasda cəmi 19 nəfər şura üzvünün iştirak etməsi göstərilmişdir. Beləliklə, həmin məsələ - İrəvanın ermənilərə güzəştə gedilməsi haqda qərar qəbul edilərkən, əslində kvorum ***(yetərsay – İ.A.)*** olmamışdır [5, 88-89].

**Həmin protokoldakı qeydlərin təhlili göstərir ki, Milli İslam Şurasının 26 üzvündən yalnız 19 üzvü iştirak etmiş, qərarın lehinə isə cəmi 16 nəfər səs vermişdir. Bu isə həmin iclasın kvorum olmadan keçirilməsinə dəlalət edir.**

«Türkiyə və Azərbaycan Respublikası arasında dostluq haqqında» müqavilənin 5-ci maddəsinə əsasən, Azərbaycan Cümhuriyyəti hökuməti öz sərhədləri daxilində heç bir quldur dəstənin formalaşmasına və silahlanmasına imkan verməməyi və bura sığınacaq bütün quldurları da tərk-silah etməyi və onları dağıtmağı öz üzərinə götürürdü.

Müqavilənin 6-cı maddəsinə əsasən tərəflər dəmir yolu danışmalarında azaldılmış tariflər müəyyənləşdirmək və tətbiq etməklə bir-birinə hər cür şərait yaratmalı, 7-ci maddəyə əsasən isə Osmanlı dövləti ilə Azərbaycan Cümhuriyyəti hökuməti iqtisadi və hüquqi münasibətlərini tənzimləmək üçüm konsul konvensiyası, ticarət müqaviləsi və digər aktlar bağlamalı idilər.

Həmin müqavilənin 8-ci maddəsinə əsasən sazişə girən tərəflərin birinin ərazisindəki əhali və ya şəxsləri sərhədin digər tərəfində qalmış mal və mülkünə sahib olmağa, istifadə edə bilənlərin bunlardan istifadəsinə, onlardan faydalanmağa və yaxud birinə verməyə, onları özləri və yaxud vəkilləri vasitə-

silə satmağa haqları olacaqdı. Heç kim, ümumi mənfəət xaricində, təzminat ödəmədən qeyd olunan bu daşınmaz əmlakdan məhrum edilməməli idi. Əhali və onların qeyd olunan vəkilləri sərhədin digər tərəfində təsdiq olunmuş yol vəsiqəsini göstərdikdən sonra, onların sərhədi keçməsinə heç bir maneə törədilməməli idi [4, 174-175].

«Türkiyə və Azərbaycan Respublikası arasında dostluq haqqında» müqavilənin 9-cu maddəsinə görə, Azərbaycan beynəlxalq poçt-teleqraf ittifaqına girməsinə qədər iki ölkə arasında poçt-teleqraf münasibətləri bu müqavilənin təsdiqnamələrinin mübadiləsindən etibarən beynəlxalq ittifaqın poçt-teleqraf konvensiyalarına, sazişlərinə və nizamnaməsinə uyğun olaraq təsis edilməli idi.

Həmçinin, həmin müqavilənin 10-cu maddəsinə görə Brest-Litovskda Osmanlı dövləti və onun müttəfiqləri ilə Rusiya arasında imzalanan müqavilələrin indiki müqaviləyə zidd olmayan şərtləri Türkiyə ilə Azərbaycan arasında qüvvədə qalacaqdı.

Qeyd edilən müqavilənin 11-ci maddəsinə əsasən bu müqaviləyə ratifikasiya edilməli, təsdiqnamələr bir ay və yaxud mümkün olduğu qədər daha tez bir müddətdə İstanbulda mübadilə edilməli idi [4, 175].

Yuxarıda qeyd edilən «Türkiyə və Azərbaycan Respublikası arasında dostluq haqqında» müqaviləyə «Sərhəd yerlərində ticarətdə xüsusi güzəştlər barədə» əlavə və «Türkiyə və Azərbaycan Respublikası arasında dostluq haqqında» müqaviləyə 6 maddədən ibarət əlavə müqavilə də imzalanmışdır [3, 18-21].

**Bundan əlavə, 4 iyun 1918-ci il tarixdə Türkiyə, Azərbaycan Respublikası və Gürcüstan Respublikası arasında Bakı-Batum neft kəmərinin istifadəsi haqqında və Türkiyə, Azərbaycan Respublikası, Ermənistan Respublikası və Gürcüstan Respublikası arasında Zaqafqaziya dəmir yolunun hərəkət edən tərkibinin bölünməsi haqqında, həmçinin, razılaşma da bağlanmışdır** [3, 22-23].

Batum konfransı başa çatdıqdan sonra erməni quldur dəstələri bu müqaviləni tanımadıqlarını bəyan edib türklərə qarşı silahlı mübarizələrini davam etdirsələr də, bunun elə bir əhəmiyyəti olmadı. Osmanlı dövləti Batum 1918-ci il iyunun 20-də Osmanlı ordusu erməni quldur dəstələrinin müqavimətini qıraraq Naxçıvana girdi və beləliklə, Naxçıvanda türk bayrağı dalğalanmağa başladı [4, 184].

**Tarix elmləri doktoru A.H.Balayev «Məmməd Əmin Rəsulzadə (1884-1955)» əsərində göstərir: «1918-ci il iyunun əvvəlində Bakı Sovetinin silahlı birləşmələri ölkənin müvəqqəti paytaxtı – Gəncə üzərinə hücuma başladıqda Azərbaycan hökuməti müqavilənin həmin maddəsinə əsaslanaraq hərbi yardım xahişilə Türkiyə tərəfinə müraciət etdi. 1918-ci ilin mart hadisələrinin acı təcrübəsini nəzərə alınarsa, heç bir şübhə doğurmur ki, bolşevik-daşnak qüvvələrinin Gəncə üzərinə başlanan hücumu təkcə milli müstəqilliyimiz üçün deyil, həm də Azərbaycan türklərinin fiziki varlığı üçün real təhlükə yaradırdı»** [6, 108].

Maraqlıdır ki, hələ 1918-ci il mayın 24-də, yəni Cənubi Qafqaz Federasi-

yasının süqutu və Azərbaycanın müstəqilliyinin elan olunmasından əvvəl, Bakı Sovetinin rəhbəri Stepan Şaumyan yazırdı: «...biz yaxın vaxtlarda Gəncə üzərinə hərəkət etməyə hazırlaşırıq. Gəncəyə tələsmək lazımdır ki, orada erməniləri üsyana qaldıraq... Əgər bu üsyan baş verməsə və türklər Gürcüstan və Tiflisdə möhkəmlənsələr, onda biz tamamilə təcrid olunacaq və yalnız Abşeron yarımadasını müdafiə etmək məcburiyyətində qalacağıq». Məktubun məzmunundan da göründüyü kimi, bolşeviklər sovet hakimiyyətini bütün Cənubi Qafqaz ərazisində bərqərar etmək məqsədilə böyük planlar qururdu. Həmin planların reallaşması yolunda ilk addım isə ölkənin dövlət müstəqilliyi uğrunda mübarizə aparan Azərbaycan milli qüvvələrinin məhv edilməsi olmalı idi [6, 108].

**Beləliklə, Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasətinin formalaşmasında «Türkiyə və Azərbaycan Respublikası arasında dostluq haqqında» müqavilənin və bu müqavilə bağlanmazdan, başqa sözlə, Azərbaycan Xalq Cümhuriyyəti təşkil olunmazdan əvvəl fəaliyyətə başlamış Batum sülh konfransının (11 may 1918-ci il-4 iyun 1918-ci il tarixli) müstəsna tarixi əhəmiyyəti olmuşdur.**

**Həmçinin,«Türkiyə və Azərbaycan Respublikası arasında dostluq haqqında» müqavilənin 4-cü maddəsinə əsasən Türkiyə Cümhuriyyətinin Bakını erməni daşnaklarından təmizləmək üçün Nuru paşanın komandanlıq etdiyi Qafqaz İslam Ordusunu Azərbaycana göndərməsi və bu ordu 15 sentyabr 1918-ci ildə Bakını erməni daşnaklarının işğalından azad etməklə, ölkənin təhlükəsizliyini təmin edilməsi müqavilənin 4-cü maddəsinin tələbini yerinə yetirilməsinin bariz nümunəsidir.**

### ƏDƏBİYYAT


1. Mahmudov Y.M. İrəvan və ətrafındakı torpaqlar ermənilərə hansı şərtlərlə verilmişdir // «Azərbaycan» qəzeti, 14 oktyabr 2014, 8 vərəqə
2. Zaqafqaziya Seyminin müsəlman fraksiyası və Azərbaycan Milli İslam Şurasının iclas protokolları. Bakı: Adiloğlu, 2006, 214 s.
3. Азербайджанская Демократическая Республика (1918-1920), Внешняя политика (Документы и материалы), Баку: Азербайджан, 1998, 632 с.
4. Qafarov V.V., Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1922), Bakı, «Azərnəşr», 2011, 474 s.
5. Abbasov İ.Q., Tarixi Azərbaycan torpaqları hesabına Erməni dövlətinin yaradılması // «Milli Məclis» jurnalı, oktyabr-noyabr 2014, 109 s.
6. Balayev A.H. Məmməd Əmin Rəsulzadə (1884-1955). Bakı: Çıraq, 2012, 286 s.


## БАТУМСКАЯ КОНФЕРЕНЦИЯ И НЕКОТОРЫЕ ВОПРОСЫ ВНЕШНЕЙ ПОЛИТИКИ АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКИ


**И.К.АББАСОВ**


### РЕЗЮМЕ


Автор справедливо приходит к выводу о том, что договор «О дружбе между Турцией и Азербайджанской Демократической Республикой» имел исключительное

значение в формировании внешней политики Азербайджанской Демократической Республики.

**Ключевые слова:** Азербайджанская Демократическая Республика, Батумская конференция, договор о дружбе

## BATUMI CONFERENCE AND SOME QUESTIONS OF FOREIGN POLICY OF THE AZERBAIJAN DEMOCRATIC REPUBLIC

**I.Q.ABBASOV**

**SUMMARY**

The author fairly comes to a conclusion that the contract "On Friendship between Turkey and the Azerbaijan Democratic Republic" had exclusive value in formation of foreign policy of the Azerbaijan Democratic Republic.

**Key words:** Azerbaijan Democratic Republic, Batumi conference, contract on Friendship